AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 4/1

Bakı şəhəri 31 yanvar 2018-ci il

Azərbaycan Respublikası Nizami Gəncəvi adına
Qızıl medal müsabiqəsi haqqında

Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı ilə Azərbaycan Respublikasının vətəndaşları və əcnəbilər ildə bir dəfə mühüm fundamental və tətbiqi elmi nəticələrə, əsərlərə, kəşflərə, ixtiralara, habelə elmin inkişafında xüsusi xidmətlərə görə təltif edilirlər. Azərbaycan Respublikası Prezidentinin 27 iyun 2014-cü il tarixli Fərmanının 2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinə verilmişdir.

Qeyd olunanları nəzərə alaraq, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalına 2018-ci il üçün müsabiqə elan edilsin.
2. Nizami Gəncəvi adına Qızıl medala namizədlər AMEA-nın həqiqi və müxbir üzvləri, AMEA-nın elmi bölmələri, elmi tədqiqat və ali təhsil müəssisələrinin elmi şuraları, elmi cəmiyyətlər, nazirlik və dövlət komitələri yanında fəaliyyət göstərən elmi-texniki şuralar tərəfindən irəli sürülə bilər.
3. Nizami Gəncəvi adına Qızıl medal üçün irəli sürülmüş namizəd haqqında təqdimat, müvafiq sənədlərlə birlikdə 2018-ci il martın 01-dək AMEA prezidentinin 31 mart 2014-cü il tarixli 42 nömrəli sərəncamı ilə yaradılmış Ekspert Komissiyasına təqdim edilsin.
4. Ekspert Komissiyasına tapşırılsın ki, ciddi ekspertiza və qiymətləndirmə əsasında iddiaçılar sırasından 2018-ci il martın 15-dək Nizami Gəncəvi adına Qızıl medalla təltif ediləcək namizədlər seçilsin və onlar haqqında müvafiq rəylər AMEA-nın Rəyasət Heyətinə təqdim edilsin.

5. AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil idarəsinə (AMEA-nın müxbir üzvü Əminağa Sadıqov) tapşırılsın ki, Nizami Gəncəvi adına Qızıl medal müsabiqəsi ilə bağlı təşkilati məsələlər həll edilsin.
6. Qərarın icrasına nəzarət AMEA-nın prezidenti, akademik Akif Əlizadəyə həvalə edilsin.

AMEA-nın prezidenti — akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi — akademik Rasim Əliquliyev